# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# IV.Sintaksis

## 60. Ara sözlər

# Ara sözlər

**Ara sözlər** danışanın ifadə etdiyi fikrə münasibətini bildirir.
***Əfsus, əlim ona çatmır.***

| Sözlər şəklində olanlar | Söz birləşmələri şəklində olanlar | Cümlə şəklində olanlar |
|---|---|---|
| ***Təəssüf ki,* iclasdakıları eşidə bilmədim.** | ***Mən, haqlı olaraq, onu danladım.*** | ***İndi, necə deyərlər, özün öz işlərinin dalınca get.*** |

# IV.Sintaksis

## 61. Ara sözlərin ifadə vasitələri

# Ara sözlərin ifadə vasitələri

| Nitq hissələrinə aid olan sözlərlə ifadə olunanlar | Cümlə ilə ifadə olunanlar | Söz birləşmələri ilə ifadə olunanlar |
|---|---|---|
| ***Modal sözlərlə: Əlbəttə, günah məndədir.*** | ***Mənə belə gəlir ki, o da mənsiz darıxır, ancaq boynunu almağa cəsarəti çatmır.*** | ***Müəllimin fikrincə, dərsi yaxşı mənimsəmək üçün kitabın sonundakı testləri də eləmək lazımdır.*** |
| ***İsimlə: Nəhayət, hər şey aydınlaşdı.*** | | |
| ***Sifətlə: Yaxşı ki, yadıma düşdü.*** | | |
| ***Sayla: Birinci, mən səndən heç nə soruşmadım.*** | | |
| ***Əvəzliklə: məncə, bütün bunlar cəfəngiyatdır.*** | | |
| ***Fellə: görünür, bunlar sənə dərs olmadı*** | | |

# IV.Sintaksis

## 62. Ara sözlərdə durğu işarələri

# Ara sözlərdə durğu işarələri

**Cümlənin əvvəlində işləndikdə**

Ara sözlərdən sonra vergül qoyulur:
***Əlbəttə gözləmək vacibdir***

**Cümlənin ortasında işləndikdə**

Ara sözlərin hər iki tərəfində vergül qoyulur:
***Bütün bunlar, şübhəsiz, ondan ötrüdür.***

**Cümlənin axırında işləndikdə**

Ara sözlərdən vergül, sonra cümlənin tələbinə uyğun işarə qoyulur:
***İşlər düzəldi, nəhayət!***

# IV.Sintaksis

## 63. Ara sözlərin məna növləri

# Ara sözlərin məna növləri

| Yəqinlik bildirənlər | Güman, şübhə bildirənlər | Fikrin mənbəyini, kimə aid olduğunu bildirənlər | Nitqin hissələri arasında münasibətləri (əlaqəni) göstərənlər | Təəssüf bildirənlər |
|---|---|---|---|---|
| Əlbəttə, şübhəsiz, həqiqətən, düzü, doğrudan da, yəqin ki, doğrusu | Bəlkə (də), güman (ki), deyəsən, ehtimal (ki), olsun (ki), görəsən, olmaya | Məncə, bizcə, mənə görə, sənə görə, guya, deyilənə görə | Nəhayət, beləliklə, deməli, xülasə, qısaıs, əvvələn, əksinə, birincisi | Heyf (ki), çox heyf, təəssüf |